“Dünya xəzinələri – Azərbaycan” filminin premyerasında bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üzrə prezidenti Qəri Counzun çıxışı

Möhtərəm qonaqlar,

Zati-aliləri,

Xanımlar və cənablar,

- Hamınızı xoş gördük.
- Sizi Azərbaycandakı fəaliyyətimizin 30-cu ildönümünə həsr olunmuş tədbirlər çərçivəsində **“Dünya xəzinələri – Azərbaycan” sənədli filminin premyerasında** salamlamaqdan çox məmnunam.
- Bu film dünyadakı müxtəlif əsrarəngiz yerləri, əfsanəvi şəhərləri və mədəniyyət möcüzələrini kəşf edərək tamaşaçıya təqdim edən məşhur sənədli filmlər silsiləsi çərçivəsində çəkilib.
- Sadaladığım bütün bu gözəlliklər isə Azərbaycanda var.
- Azərbaycanın qədim tarixi, zəngin irsi və ecazkar təbiəti hər kəsi heyran qoyur. Hələ onun qonaqpərvər və dostsevər insanlarını demirəm.

- Mənim 2017-ci ilin əvvələrində ilk dəfə buraya gələndən bəri filmdə nümayiş olunan gözəl məkanların bir çoxuna səfər etmək imkanım olub. Buraya bir neçə ay bundan əvvəl kulinariya festivalında, növbəti dəfə isə Enerji Həftəsi çərçivəsində Şuşa şəhərinə səfərim də daxildir.
- Getdiyim yerlərin hər birindən məhz filmə baxdıqda alacağınız təəssuratlarla döndüm.
- Zəngin mədəni irs, ənənə, sənət, musiqi, rəqslər və, nəhayət, rastınıza çıxacaq insanların dərin emosiyaları.
- Və bunu bütün ölkə haqqında demək olar.
- Az sonra izləyəcəyimiz filmdə **Bakı, Şuşa, Qobustan və Şəkidə yerləşən ən əsrarəngiz yerlərə** səyahət edəcəksiniz.

- Biz son 30 ildə Azərbaycanın mühüm enerji layihələrini həyata keçirməkdən və onların operatoru olmaqdan qürur və şərəf duyuruq.
- Biz buna hökumətin daimi dəstəyi sayəsində SOCAR və digər tərəfdaşlarımızla birlikdə işləyərək nail olmuşuq.
- Əsas məqsədimiz olan Azəbaycanın dünya səviyyəli enerji layihələrinin işlənməsi ilə yanaşı biz həm də məsuliyyətli korporativ vətəndaş olaraq həyata keçirdiyimiz fəaliyyətlərlə qürur duyuruq.
- Bizim üçün bu film dünyaya Azərbaycanın qonaqpərvərliyini, gözəlliyini və böyük dəyərlərini nümayiş etdirmək üçün gözəl bir fürsətdir.
- Bu filmə verdiyimiz dəstək həm də öz milli irsinə hörmət və sevgi ilə yanaşan yerli əməkdaşlarımıza minnətdarlığımızın ifadəsidir.
- Və nəhayət, film bizim bu möhtəşəm ölkədəki fəaliyyətimizin 30-cu ildönümündə Azərbaycan xalqına hədiyyəmizdir.

- Əlbəttə ki, bu gözəl film  çoxsaylı insanın dəstəyi ilə ərsəyə gəlib.
- İlk növbədə, bu dəyərli layihəyə verdikləri dəstəyə görə **Heydər Əliyev Fonduna** təşəkkür etmək istəyirəm.
- Bu bizim birlikdə ərsəyə gətirdiyimiz və Azərbaycanın unikal irsini təbliğ edən ikinci filmimizdir.
- Bu vaxtadək, biz Fond ilə birlikdə 10 sosial sərmayə layihəsini uğurla həyata keçirmişik.
- Bütün bu layihələrin əsas məqsədi bu ölkəyə və onun insanlarına davamlı töhfələr vermək olub.
- Ümid edirəm ki, əməkdaşlığımız bundan sonra da davam edəcək və birlikdə həyata keçirəcəyimiz bu cür dəyərli təşəbbüslərin sayı daha da artacaq.
- Mən həmçinin bu cür möhtəşəm bir filmin ərsəyə gəlməsinə görə **professor Bettani Hyuza və “Sandstone Global Productions” şirkətinin heyətinə** dərin minnətdarlığımı bildirirəm.

- Onlar Azərbaycanın misilsiz mədəni irsinin bu cür tədqiq edilməsi və dünya ictimaiyyətinə mükəmməl şəkildə təqdim edilməsi baxımından çox nəhəng bir iş görüblər.
- Mən **Arzu xanım Əliyevaya və Bakı Media Mərkəzinə** mükəmməl texniki dəstəyə görə xüsusilə təşəkkür edirəm. Onlar öz işlərində həqiqətən də dünya səviyyəli peşəkarlar olduğunu bir daha sübut etdilər.
- Və nəhayət, bu layihənin gerçəkləşməsində əllərindən gələni əsirgəməyən həmkarlarım - **bp komandasına** təşəkkür edirəm.

- Ümid edirik ki, milyonlarla insan Azərbaycanı dünyanın mədəniyyət xəzinəsinin bir incisi kimi təqdim edən bu filmdən böyük zövq alacaq.
- Çıxışımı isə elə bu filmdən bir sitat gətirərək bitirmək istəyirəm.
- "Təbii ilə fövqəltəbii arasında qərar tutan bu diyar bir xəzinə və möcüzədir."
- **İddialı bir fikirdir amma, məncə, tamamilə doğrudur.**
- Təşəkkür edirəm və filmdən zövq alacağınıza ümid edirəm.

-SON-